*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2026*
*Səh. 460-465*

https://doi.org/10.62837/2026.2.460

**ZİYA FƏTULLAYEV**
Lənkəran Dövlət Universitetinin magistrantı
ziya.ftullayev@mail.ru

# MƏMMƏD ARAZIN PEYZAJ-TƏBİƏT LİRİKASINDA TORPAQ-VƏTƏN İDEYALARININ TƏRƏNNÜMÜ

## XÜLASƏ

Məqalədə Məmməd Arazın peyzaj-təbiət lirikasında Torpaq–Vətən ideyalarının bədii-fəlsəfi ifadəsi araşdırılır. Şairin doğulub boya-başa çatdığı Nurs kəndi və onun ətrafındakı təbii mühit – xüsusilə Salvartı dağ silsiləsi və Batabat yaylası – onun poeziyasının formalaşmasında mühüm rol oynamışdır. Məqalədə göstərilir ki, şair üçün dağ, qaya, torpaq, su və ocaq obrazları yalnız təbiət təsviri deyil, həm də vətən anlayışının rəmzi ifadəsidir.

Təhlillər sübut edir ki, Məmməd Arazın poeziyasında təbiət və vətən vəhdət təşkil edir. Dağlar vətənin səngəri, torpaq həyatın mənbəyi, su dirilik rəmzi kimi təqdim olunur. Şair peyzaj elementləri vasitəsilə milli birlik, vətəndaşlıq məsuliyyəti və azərbaycançılıq ideyasını tərənnüm edir. Onun şeirlərində vətənə bağlılıq sadəcə emosional münasibət deyil, həm də fəal vətəndaş mövqeyi kimi ifadə olunur.

Məqalədə şairin müxtəlif şeirləri əsasında göstərilir ki, təbiət obrazları insanla eyniləşdirilir, vətənin bütövlüyü isə təbiət komponentlərinin və insanların birliyi ilə mümkün sayılır. Nəticə etibarilə, Məmməd Arazın peyzaj lirikasında Torpaq–Vətən ideyası həm poetik-estetik, həm də mənəvi-ideoloji məzmun daşıyır və milli özünüdərk prosesində mühüm yer tutur.

**Açar sözlər: Məmməd Araz, peyzaj, lirika, təbiət obrazları, torpaq, vətən ideyası, azərbaycançılıq, vətəndaşlıq mövqeyi, milli birlik, dağ obrazı, bədii-fəlsəfi düşüncə**

Məmməd Arazın təbiət vurğunu olması və müxtəlif peyzaj çalarları ilə tərənnüm etməsi çoxşaxəliliyin bir parçasıdır. Axı Məmməd Araz da doğulduğu, boya-başa çatdığı Şahbuz rayonunun Nurs kəndi adı dillər əzbəri olan Salvartı dağ silsiləsinin ətəklərindədir. Axı dünyanın hər tərəfindən axışıb gələn turistlərin ən çox sevdiyi Batabat yaylası da Məmməd Arazın doğma kəndinə yaxındır. Bütün bu səbəblər aydındır, təkzibedilməzdir. Bunu da xatırlamaq yerinə düşər ki, görkəmli publisist, tənqidçi Vaqif Yusifli dediklərimizi aşağıdakı sitatla təsdiq edir:

“Doqquzuncu sinifdə oxuyarkən sinif yoldaşlarından kimsə qoltuğunda Səməd Vurğunun «İstiqlal təranəsi" kutabını görür, yəni Məhəmməd İbrahim. Və gözünə dəyən ilk şeir "Dilican dərəsi" olur". [ 12, 20 ]

Həqiqətən də, insanın ilk müəllimi, birinci sinif müəllimi heç vaxt yaddan çıxmadığı kimi, ilk şair kitabı və ilk oxuduğu və yaddaşına həkk etdiyi şeir də elədir. Elə bunun təsiri ilə də gənc Məmməd qələmə sarılır, şeir yazmağa başlayır.

Tədqiqatçı Vaqif Yusifli yuxarıdakı fikrini tamamlayaraq yazır:

"O gün ( ilk şeirini yazdığı gün) gecəsi olmayan və heç vaxt olmayacaq bir gün idi. O gün bütün sevinc və həyəcanını büküb əbədi ünvana göndərib". [ 12, 21 ]

Çox hörmətli və dəyərli tədqiqatçımız Vaqif Yusiflinin qənaətinə və yazdığına görə hər bir sənətkar, hər bir şair mütləq kimdənsə bəhrələnir, kiməsə bənzəmək istəyir. Bu təbiidir. O ki qaldı Məmməd Araza, birmənalı olaraq o bənzərsiz şairdir. Düşünən olar ki, elə şairlərin hamısı təbiətdən yaza bilər. Bu, doğrudur. Ancaq Məmməd Araz elə təbiət təsvirlərindən, peyzajları müxtəlifliyindən istifadə edir ki, az savadlı, az oxumuş bir insan onun şeirini oxuyarkən tam qənaətə gəlir ki, təbiətsiz, ocaqsız, yamacsız, münbit torpaqsız, çaysız, gölsüz, bulaqsız, qayasız, daha nələrsiz, daha nələrsiz vətən yoxdur və onlarsız vətəni təsəvvür etmək olmaz. Axı bunlarsız heç bir insan normal yaşaya bilməz. Çünki dağlar vətənin səngəri, su həyatdır, torpaq hərəkətdir, qida mənbəyidir. Ana vətəni, ananı, onun doğulduğu, məkan, torpaq vətəndir. Bunları isə qoruyan atalardır, mərd igidlərdir, şəhidlərdir, qazilərdir, dövlətdir. Deməli, torpaqsız, dağsız, susuz vətən yoxdur. Vətənin də qeyrətli vətəndaşları olmalıdır. Məmməd Araz təbiəti təsvir edir ki, o, gəlib insanlara şamil olur. Necə ki, dağsız, dərəsiz, torpaqsız, susuz və s. vətən vətən deyil; onları da bir-birindən ayırmaq olmadığı kimi, insanlar da ayrılmamalı, birləşməli, vətəni qorumalıdır.

Dağsız duman yalnız ahdı,
Qara bulud yalqız axdı.
Çən təkləndi - yalquzaqdı,
Çəni qoymayın təklənə. [ 10, 150 ]

Bax, Məmməd Arazın peyzajın dili ilə, təsvirin gücü ilə açıq-aşkar dediyi budur ki, səni də qoymayın təklənə, qara buludu belə qoymayın təklənə. Çünki bulud da təklənsə, yağış az yağar, ya heç yağmaz. Beləliklə, meşələr də quruyar, torpaq da məhsuldarlığını itirər, çaylar, bulaqlar da quruyar. Bu da vətəni məhv edər.

İnkaredilməz həqiqətdir ki, hər bir azərbaycanlı ölkənin daşına, çınqılına çevrilməli, yurd, torpaq təşnəsi onun amalı, əməlinə hopmalıdır. Ölməz sənətkar şeirlərinin birində deyir:

Yenə dağ döşündə dənərləndi qar,
Yenə zirvələrin həsrətində qal,
Sel qopdu, dərəyə düşdü qalmaqal...
Bir ocaq başında bir isinməsək,
Sən kimə gərəksən,
Mən kimə gərək?! [ 9, 196 ]

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2026*
*Səh. 460-465*

İlk baxışdan, ilk anlamdan vətəndaşı olmayan, yaxud ola bilməyən vətəndaşlar bu ocağı adi, odunla yanan bir ocaq kimi başa düşə bilər. Yox, əsla belə deyil, Məmməd Arazın təsvir etdiyi ocaq bütün Azərbaycanı əhatə edir. Saysız-hesabsız mənəvi azərbaycançılıq ocağıdır. O ocaq milyonlarla ocağa qor verir, köz verir ki, o ocaqlar da sönməsin. Dədə Qorqud ocağı kimi sönməz ocaqlar. O deyirdi: qoy ocaqlarınız sönməz olsun, yanar olsun.

Bütün bu ruhu ilə, əməli ilə bu torpağa bağlı olan Məmməd Araz şeirin son bəndində yazırdı:

Keçək dərələrin boğanağından,
Keçək dolayların doğanağından,
Günəşin zirvədə doğan anından
Nur alıb bu yurda səpələməsək,
Sən kimə gərəksən,
Mən kimə gərək?! [ 9, 197 ]

Diqqətlə fikir verək: heç bir şairin işlətmədiyi bu imkansızlığı reallığa çevirə biləcək iki misra şeirlə nə deyir? Bu mümkündürmü? Bəli, mümkündür.

"Azərbaycan dünya mənim şeirində" Azərbaycan adlı bir diyarı bir dünya bilir və bu dünyanı Yer kürəsinin mənzərəsi hesab edərək məhz bu mənzərədən dünyanı seyr edir və hər kəsi bu baxışa dəvət edir. Və bu, bugünkü Azərbaycana dünya gözü ilə, dünya mənzərəsi ilə baxaraq bu heyranlığa hərkəsi dəvət edir. Şairin arzuları real əməllərə çevrildiyi inkar edilməzdir. Vətəndaş şair budur.

Məmməd Arazın digər bir şeirinə diqqət yetirək:

Vətən mənə oğul desə, nə dərdim?
Mamır olub qayasında bitərdim. [ 9, 133 ]

Yaxud

Bir qayaya söykənmişəm, deyirəm kaş:
Bax beləcə daşa dönüm yavaş-yavaş. [ 9, 108 ]

Diqqət edək, vətən ona oğul dedi. Niyə ağac budağında, münbit torpağında, təpəsində, dəniz kənarında, çay qırağında bitmədi, qayasında bitmək istədi, bitdi. Çünki torpaq quruyur, ağac da quruyur, güclü külək əssə, bir müddətdən sonra təpələr yox olar. Amma qayalar vüqarlıdır, güclüdür, yenilməzdir, əbədidir. Elə buna

görə də növbəti iki misrada o, qayaya söykənir, daşa dönmək istəyir ki, əbədi orada qalsın.

Deməli, qayalar, dağlar vətənin, doğma yurdun, müqəddəs torpağın bu və ya digər ölkənin atributudur, təyinedicisidir. Necə ki, hər bir dövlətin atributları — sərhəd, himn, bayraq, gerb və s. olduğu kimi, hər bir yurdun öz atributları var. Bu atributlar təyinedicilər ana yurdun, doğma torpağın əbədi kompasıdır. Məsələn, Lənkəran, Astara, Lerik və onla yaxın olan rayonlar Talış dağları ətrafında, Kəlbəcər, Murov dağının ətraflarında və s. yerləşir. Ona görə də həmin dağlar o rayonların, o torpaqların kompasıdır.

Məmməd Araz bildiyimiz kimi Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Nurs kəndindəndir. O, Bakıda yaşadığı dövrlərdə Azərbaycanın rayonlarına ya oxucularla görüşə, ya istirahətə, ya da digər qonaqlığa gedərkən ən əvvəl dağlarla, qayalarla maraqlanır. Çoxları bunu onun ixtisasca coğrafiya müəllimi olduğu ilə əlaqələndirir. Bəlkə də bu, belədir...

Murova, Ketidağa, Talış dağlarına, Pirquluya və digər dağlara baxanda rəqqətə gələn şair yazır:

Dağlar gördüm, dağlarımın oxşarı,
Zirvələrin görüşünə tələsdim.
Küləkləri saçlarımı oxşadı,
Boranına, yağışına tələsdim. [ 9, 195 ]

Deməli, şair Azərbaycanın adları sadaladığımız dağlarını bu diyarın ayrılmaz bir parçası olan Naxçıvan dağları ilə oxşarlığını görür. O sanki özünü Salvartının gədiyində hiss edir və həmin dağların zirvəsinə tələsir, borana da, yağışa da düşsə, əlçatmaz zirvələrə qalxmaq istəyir və oradan vətənini seyr etmək istəyir. Əsl vətəndaş belə olmalı, o həm də bu şeirlə, bu ideya ilə Azərbaycan vətəndaşlarını vətənin daşı olmağa səsləyir.

Məmməd Araz şeirlərində vurğulanan vətən sevgisi, vətəndaşlıq qayəsi, əsl vətəndaş olması üçün vətənin daşına çevrilməyi bacaran hər bir azərbaycanlıya bir ana dili dərsliyidir. Məncə, mənəviyyatca, vətəndaşlıq təbliğini aşılayan əsl azərbaycançılığı təbliğ edən bu yazını şairin Musa Yaqubun «Göyərməz» şeirinə cavab yazdığı «Göyərdi» şeirinin son bəndi ilə tamamlayırıq:

Mən Arazda şaxələnən çinardım,
Ömrü boyu tufan əydim, su yardım.
Xətainin qılıncını suvardım,
Məmməd Araz karandaşı göyərdi. [ 9, 171 ]

Eşq olsun Xətai qılıncına, suvarılandan sonra ondan göyərən Məmməd Araz karandaşına, o karandaşdan süzülüb gələn sənətkar poeziyasına!

**Ədəbiyyat**

1) Allahverdi Eminov. Məmməd Arazın poeziyası. Bakı: Elm və təhsil, 2018, 368 s.
2) "Ədalət" qəzeti. 19 mart 2011.
3) "Ədalət" qəzeti. 20 oktyabr 2023.
4) "Ədalət" qəzeti. 3 noyabr 2023.
5) "Ədalət" qəzeti. 28 dekabr 2023.
6) "Ədəbiyyat qəzeti". 27 yanvar 2020.
7) Manera.az. Mehman Qaraxanoğlu. "Haqqın var, Məmməd Araz, haqqın var yaşamağa..."
8) Məmməd Araz. Dünya sənin, dünya mənim. Şeirlər. Bakı: Yazıçı, 1983, 310 s.
9) Məmməd Araz. Seçilmiş əsərləri. İki cilddə.
I cild. Bakı: Lider nəşriyyat, 2004, 224 s.
10) Məmməd Araz. Seçilmiş əsərləri. İki cilddə.
II cild. Bakı: Lider nəşriyyat, 2004, 232 s.
11) Məmməd Araz. Seçilmiş əsərləri. Şeirlər və poemalar. Bakı, Arnəşr. 1986, 480 səh.
12) Vaqif Yusifli. Məmməd Araz dünyası (həyatı və yaradıcılığı). Bakı: Elm və təhsil, 2024, 220 s.

**ЗИЯ ФАТУЛЛАЕВ**
**магистрант Лянкяранского государственного. университета**
**ziya.ftullayev@mail.ru**

**Аннотация**

В статье исследуется художественно-философское выражение идей «Земля–Родина» в пейзажно-природной лирике Мамед Араз. Родное село поэта Нурс и окружающая его природная среда — особенно горный хребет Салварты и плато Батабат — сыграли важную роль в формировании его поэзии. В статье отмечается, что образы горы, скалы, земли, воды и очага для поэта являются не только элементами пейзажа, но и символическим выражением понятия Родины. Анализ показывает, что в поэзии Мамеда Араза природа и Родина образуют неразрывное единство. Горы представлены как оплот Родины, земля — как источник жизни, вода — как символ жизненной силы. Посредством пейзажных элементов поэт прославляет идеи национального единства, гражданской ответственности и азербайджанства. В его стихах привязанность к Родине выражается не только как эмоциональное чувство, но и как активная гражданская позиция.

На основе анализа различных стихотворений поэта в статье показано, что природные образы отождествляются с человеком, а целостность Родины

возможна благодаря единству природных компонентов и людей. В итоге, в пейзажной лирике Мамеда Араза идея «Земля–Родина» обладает как поэтико-эстетическим, так и духовно-идеологическим содержанием и занимает важное место в процессе национального самосознания.

**Ключевые слова: Мамед Араз, пейзаж, лирика, образы природы, земля, идея Родины, азербайджанство, гражданская позиция, национальное единство, образ горы, художественно-философское мышление.**

**ZIYA FATULLAYEV**
**Master's student at Lankaran State University**
**ziya.ftullayev@mail.ru**

## THE GLORIFICATION OF THE LAND–HOMELAND IDEAS IN THE LANDSCAPE-NATURE LYRICS OF MAMMAD ARAZ

### ABSTRACT

The article explores the artistic and philosophical expression of the "Land–Motherland" ideas in the landscape and nature lyrics of Mammad Araz. The poet's native village of Nurs and its surrounding natural environment—particularly the Salvartı mountain range and the Batabat plateau—played a significant role in shaping his poetry. The study shows that images such as mountains, rocks, land, water, and hearth are not merely elements of nature description, but symbolic representations of the concept of the Motherland.

The analysis demonstrates that in Mammad Araz's poetry, nature and the Motherland form an inseparable unity. Mountains are depicted as the fortress of the Motherland, land as the source of life, and water as a symbol of vitality. Through landscape elements, the poet glorifies national unity, civic responsibility, and the idea of Azerbaijanism. In his poems, devotion to the Motherland is expressed not only as an emotional attachment but also as an active civic stance.

Based on the analysis of various poems, the article reveals that natural images are identified with the human being, and the integrity of the Motherland is seen as possible through the unity of natural components and people. Consequently, in Mammad Araz's landscape lyrics, the "Land–Motherland" idea carries both poetic-aesthetic and spiritual-ideological significance and holds an important place in the process of national self-awareness.

**Keywords: Mammad Araz, landscape, lyric poetry, nature imagery, land, idea of the Motherland, Azerbaijanism, civic position, national unity, mountain image, artistic-philosophical thought**

**Rəyçi: Elşad Səfərli Filologiya elmləri namizədi**